**BEYNƏLXALQ MÜŞAHİDƏ MİSSİYASI**
**Azərbaycan Respublikası – Parlament Seçkiləri, 7 Noyabr 2010**

# İLKİN FAKTLAR VƏ NƏTİCƏLƏR ÜZRƏ BƏYANAT

**Bakı, 8 noyabr 2010** – İlkin nəticələr üzrə təqdim edilən bu Bəyanat ATƏTin Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (ATƏT/DTİHB), ATƏTin Parlament Assambleyası (ATƏT PA), Avropa Şurasının Parlament Assambleyası (AŞPA) və Avropa Parlamentinin (AP) birgə fəaliyyətinin nəticəsidir.

Seçkilərin ATƏT və Avropa Şurasının demokratik seçkilər barədə öhdəlikləri, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə cavab verib-vermədiyini müəyyən etmək üçün qiymətləndirmə aparılmışdır. İlkin nəticələr üzrə təqdim edilən bu bəyanat seçki prosesi bitən zaman təqdim olunur. Yekun qiymətləndirmə qismən həm də seçki prosesinin sonrakı mərhələlərinin keçirilməsi, səslərin sayılması və nəticələrin elan edilməsi, həmçinin seçki günündən sonra daxil olan şikayət və yaxud müraciətlərə baxılmasından asılı olacaqdır. ATƏT/DTİHB tərəfindən seçki prosesinin başa çatmasından 8 həftə sonra gələcək təkmilləşdirmə üçün tövsiyyələr paketinin də daxil olduğu ətraflı yekun hesabat hazırlanacaqdır. ATƏTin PA-sı bu hesabatı 30 Noyabrda Astanada keçiriləcək Büro Görüşü zamanı təqdim edəcəkdir. AŞPA nın nümayəndə heyəti öz hesabatını Assambleyanın 2011ci il Yanvar sessiyasında təqdim edəcəkdir. AP öz hesabatını Noyabrda keçiriləcək Xarici İşlər Komitəsində təqdim edəcəkdir.

## İLKİN NƏTİCƏLƏR

Azərbaycan Respublikasında 7 noyabr, 2010-cu il tarixində keçirilən Parlament Seçkiləri sülh şəraiti və bütün müxalifət partiyalarının siyasi prosesdə iştirakı ilə səciyyələnsə də, seçkilərin aparılması ölkənin demokratik inkişafında əhəmiyyətli irəliləyişin əldə edilməsi üçün qənaətbəxş hesab edilməmişdir.

Ümumilikdə, Mərkəzi Seçki Kommissiyası (MSK) seçki prosesinin texniki aspektlərini yaxşı təşkil etmişdir. Bununla belə, mətbuat və sərbəst toplaşmaq azadlığına tətbiq edilən məhdudiyyətlər, namizədlərin qeydiyyatı zamanı meydana çıxan çatışmazlıqlar müxalifəti zəiflətmiş və canlı siyasi diskursun mövcudluğunu qeyri mümkün etmişdir. Bu və məhdud rəqabət mühiti seçicilər üçün məlumata əsaslanmış seçim etməyi çətinləşdirən nahamar oyun meydançası yaratmışdır. Seçicilərə mərkəzləşdirilmiş seçici siyahısını yoxlamaq, düzəliş və əlavələr etmək üçün sorğu göndərmək imkanının yaradılması, MSKnın mətbuat da daxil olmaqla seçiciləri maarifləndirmə kampaniyası aparması müsbət inkişaf olaraq qiymətləndirilir.

Seçki günü səsvermə prosesi müşahidəçilər tərəfindən izlənilən 1100 səsvermə məntəqəsində (5175 məntəqədən) demək olar ki 90 faizində müsbət qiymətləndirilmiş, 10 faizində isə ciddi problemlərin olduğu qeyd edilmişdir. Prosesi Müşahidəçilər tərəfindən izlənən 150 səsvermə məntəqəsinin üçdə birində pozuntularla müşaiyət edilmiş səslərin sayılması prosesi bir sıra yerlərdə topa bülletenlərin atılması kimi problemləri də nəzərə almaqla pis və yaxud çox pis olaraq qiymətləndirilmişdir.

**Prosesin mənfi aspektlərinə daxildir:**

- İctimai və Siyasi həyatın bir partiya tərəfindən idarə edilməsi.
- Dairələr səviyyəsində nöqsanlarla müşaiyət olunan namizədlərin qeydiyyata alınması prosesi iqtidar partiyası tərəfindən irəli sürülən namizədlərin demək olar ki hamısının, müxalifət partiyalarının namizədlərinin isə yarıdan daha azının qeydiyata alınmasına gətirib çıxarmış və bununla da seçilmək hüququna təsir göstərmişdir.
- Elektron mətbuatda alternativ fikirlərin yoxluğuna, tənqidi çap mətbuatının qıtlığına gətirib çıxaran, balanslaşdırılmış və tərəfsiz xəbər ötürücülüyünün çatışmazlığı.
- Məhbus jurnalistlərin həbsi məsələsinin həllini tapmaması.
- Effektiv kampaniya üçün vacib olan resurslara siyasi partiyaların qeyri bərabər çıxışı.
- Kampaniya üçün yararsız yerlərin ayrılması və bu ərazilərdən kənarda müxalifət namizədlərinin siyasi toplantılarının əngəllənməsi.
- Seçici və namizədlərə hədə-qorxu gəlinməsiylə bağlı daxil olan tutarlı məlumatlar və inzibati resurslardan sui istifadə edilməsi.
- Kampaniya müddətinin qısaldılması ilə bağlı son anda edilən qanunvericilik dəyişiklikləri.
- ATƏT/DTİHB və Avropa Şurası Venesiya Kommissiyasının bundan öncəki hesabatında qanunvericiliklə bağlı qeyd edilmiş tövsiyyələrin yerinə yetirilməmiş olaraq qalması.
- Seçki Kommissiyalarının təşkili prinsipindən irəli gələn seçki administrasiyasında hökümətyönlü qüvvələrin üstünlüyünün davam etməsi.
- Seçkilərə aid şikayətlərlə bağlı görülən hüquqi tədbirlər çox zaman vədəsiz, qeyri effektiv və hüquqi cəhətdən əsaslandırılmamışdır.

**Prosesin müsbət aspektlərinə daxildir:**

- Keçmiş seçkilərdən fərqli olaraq, bütün partiyalar bu seçkilərdə iştirak etmişlər.
- Bütün müxalifət nümayəndələri MSK-da öz yerlərini tutmuşlar.
- MSK tez tez açıq iclaslar keçirmiş, bütün tələbləri hüquqi zaman çərçivəsində tamamlamış və öncədən qaydaları diqqətlə hazırlayıb işləmişdir.
- MSK bütün namizədlərə ictimai televiziyada dəyirmi masa müzakirələrində dörd dəqiqəlik pulsuz efir vaxtı ayırmışdır.
- Qeydiyyatından imtina edilmiş 172 namizəddən qırx üçünün şikayəti təmin olunmuşdur.
- Bir çox sayda beynəlxalq və yerli müşahidəçilər qeydə alınmışlar; beynəlxalq müşahidəçilər MSK ilə yaxşı əməkdaşlıqdan məmnun qalmışlar.
- Bütün əsas siyasi partiyaların namizədləri arasında milli azlıqların nümayəndələri təmsil olunmuşlar.
- Keçən parlament seçkilərinə nisbətdə qadın namizədlərin sayı 10 faizdən 13 faizə qədər artmışdır.

Müşahidəçilərin təmsil etdikləri təsisatlar yeni seçilmiş Parlament və ölkədə demokratik quruculuğun daha da inkişaf etməsi üçün səy göstərən hökumətlə əməkdaşlıq etməyə hazırdır.

## İLKİN FAKTLAR

### Qısa İcmal

3 Sentyabr 2010 tarixində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Konsitutisiyaya uyğun olaraq 7 Noyabrda keçiriləcək Parlament Seçkilərini elan etdi. Seçki iqtidar partiyası və müxalifət partiyaları arasındakı dialoq çatışmazlığı ilə səciyyələnən siyasi şəraitdə keçirildi. 2005ci ildə keçirilən parlament seçkilərinin nəticələri bəzi müxalifət partiyaları tərəfindən qəbul edilməmişdir və nəticədə 2006-cı ilin May ayında parlamentə keçirilən təkrar seçkilər və 2008-ci ilin Oktyabrında keçirilən prezident seçkiləri də eyni partiyalar tərəfindən boykot edilmişdir.

Azərbaycanda icraedici hakimiyyətin parlamentə nisbətən daha geniş səlahiyyətlərə malik olduğu güclü prezident sistemi mövcuddur. Cari parlamentdə (Milli Məclis) çoxluq təşkil edən Yeni Azərbaycan Partiyası (YAP) 125 yerdən 64-nə malikdir. Qırx beş yer, müstəqil namizəd olaraq seçilmiş, lakin adətən hakim partiyanı dəstəkləyən millət vəkillərinə məxsusdur. Müxalifət daha kiçik paya malikdir: müxalifət partiyası olan Müsavatın parlamentdə təmsil olunan millət vəkillərinin sayı dörddür.Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) daxil olmaqla bəzi müxalifət partiyaları 2005-ci[1] ildə keçirilən parlament seçkilərindən sonra qazandıqları yerlərdən imtina etmişlər.

### Hüquqi Çərçivə və Seçki Sistemi

Bu seçkilərin əsaslandığı ilkin qanunvericilik sənədləri Konstitusiya (1995, 2009cu ildə düzəlişlər edilib) və Seçki Məcəlləsidir (2003, 2010-cu ildə düzəliş edilib). Hüquqi çərçivəyə Sərbəst Toplaşmaq Azadlığı (2008), Radio və Televiziya Yayımları haqqında Qanun, Mülki Prosesual Məcəllə, Cinayət Məcəlləsinin müvafiq müddəaları və İnzibati Xətalar Məcəlləsi, həmçinin Mərkəzi Seçki Kommissiyasının (MSK) qaydaları daxildir.

Seçki Məcəlləsi seçkilərin bütün növlərini nizamlayır və qəbul olunduğu vaxtdan bəri bir neçə dəfə düzəlişlər edilib. Son düzəlişlər, çox az ictimai müzakirə nəticəsində tələsik şəkildə 2010cu ilin İyununda edilib. Seçki müddəti yenidən azaldılaraq 75 gündən 60 günə qədər azaldıldı, həmçinin kampaniya müddəti də qısaldıldı, indi bu müddət seçki günündən 23[2]gün öncə başlayır. Bundan əlavə, düzəlişlər namizədlərə kampaniya üçün dövlət tərəfindən ayrılan məhdud mailiyyənin verilməsini nəzərdə tutan bəndləri aradan qaldırırdı. Düzəlişlər, ATƏT/DTİHB və Avropa Şurası Venesiya Komissiyası tərəfindən hazırlanmış, xüsusilə hökümətyönlü qüvvələrin dominantlığına şərait yaradan bir sistemin qurulmasına imkan verən və bununla da ictimaiyyətin inamını qazanması şübhə doğuran seçki komissiyalarının təşkil olunmasına dair uzun müddətdir ki, movcud olan tövsiyyələri yerinə yetirməmişdir. Digər tövsiyyələr , seçki mubahisələrinin həll edilməsi, namizədlərin uyğunluğu, yenidən sayma üçün qaydalar və seçki nəticələrinin ləğv edilməsi, və hərbi hissələrdə səsvermə ilə bağlıdır.

Seçki Məcəlləsi bəzən təkrarlardan ibarətdir və namizədin uyğunluğu, şikayətlər və appelyasiya prosesi də daxil olmaqla bir neçə qeyri müəyyən məqamları ehtiva edir. Prezident seçkilərindən

---

[1] Beynəlxalq Müşahidə Missiyasının 2005-ci ildə keçirilən Parlament seçkiləri barədə "ATƏTin bir sıra öhdəliklərini qarşılamadığı və Avropa Şurasının və demokratik seçkilərin standartlarına uyğun gəlməməsi " kimi yekun bəyanat verməşdir.

[2] 2005-ci il parlament seçkiləri vaxtı rəsmi kampaniya müddəti 60 gün idi.

fərqli olaraq diaspora üçün parlament seçkilərində səsvermə imkanı yaradılmamışdır. Həmçinin seçki günü xəstəxanalarda olub seçki məntəqəsinə gələ bilməyən seçicilər üçün xüsusi səsvermə prosesi mövcud deyildir. Müsbət irəliləyiş olaraq 2008-ci ildə keçirilmiş prezident seçkilərindən sonra Mülki Prosessual Məcəlləyə Seçki Məcəlləsində seçki ilə bağlı mübahisələrlə əlaqədar məhkəmə yurisdiksiyasına dair müddəalardaki ziddiyətlər aradan qaldırıldı və bu müvafiq müddəanın tətbiqini asanlaşdırdı.

Seçkilər majoritar sistem əsasında həyata keçirilir. Deputatlar parlamentə 125 tək mandatlı dairələrdən beş illik müddətə seçilir. Seçkilərdə ən çox səs toplamış namizəd seçilmiş hesab edilir. Seçki Məcəlləsində bildirilir ki, hər dairədə qeydiyyatdan keçmiş seçicilərin sayı dairə üzrə seçicilərin orta sayının 10 faizindən kənara çıxmamalıdır. MSK dairə sərhədlərinə bəzi xırda düzəlişlər etsə də təxminən 35 dairədə qeydiyyatdan keçmiş seçicilərin sayı orta göstəricidən 10 faiz çox və bəzən də nəzərəçarpan dərəcədə yüksək olur ki, bu da səsvermə hüququnun bərabərliyini şübhə altına qoyur.[3]

## Seçki Administrasiyası

Qarşıdan gələn seçkilərin idarə olunması MSK, 125 Dairə Seçki Komissiyası (DSK, hər dairə üzrə bir) və təxminən 5.175 Məntəqə Seçki Komissiyasından (MnSK) ibarət üç mərhələli quruluşa malikdir. On bir dairə seçki kommissiyası hökumətin kontrolu altında olmayan ərazilərdə yerləşən dairələr üzrə cavabdehdir. Bu cür "Mühacirətdə olan Dairə Seçki Komissiyaları" bu ərazilərdən məcburi köçkün olmuş 340.000 insana xidmət etmişdir; bu dairələrə daxil olan səsvermə məntəqələri ölkənin müxtəlif bölgələrinə pərakəndə şəkildə səpələnmişdir. Bütün komissiyalar beş illik müddətə seçilmiş daimi orqanlardır.[4] Seçki Məcəlləsinə uyğun olaraq parlamentdə çoxluq təşkil edən partiya (iqtidar partiyası, YAP) tərəfindən namizədliyi irəli sürülən üzvlər, müstəqil namizəd olaraq seçilmiş parlament üzvləri və parlamentdə azlıq təşkil edən (parlamentdə təmsil olunan yerdə qalan partiyalar) partiyaların üzvləri üçün hər komissiyada üç bərabər kvota ehtiyat şəklində saxlanır. Qanuna əsasən, seçki kommissiyalarının sədrlərinin hamısı parlamentdə çoxluq təşkil edilən partiyanın üzvləri arasından seçilir.

MSK bu seçkilərə hazırlıqlar prosesində çox fəal olmuşdur. MSK çoxsaylı qayda və nizamnamə işləyib-hazırlamış və mətbuat da daxil olmaqla, geniş seçici məlumatlandırma və maarifləndirmə kampaniyasını başlatmışdır. Bununla belə, ATƏT/ DTİHB Seçki Müşahidə Missiyası namizədlərin qeydə alınması zamanı imza toplamaq üçün vətəndaşların şəxsiyyət vəsiqələrinin etibarlılığına, həmçinin sərbəst toplaşmaq və seçki kampaniyasının aparılmasına dair hüquqi prosedurların yerinə yetirilməsi üçün yazılı təlimatların çatışmazlığını qeyd etmişdir. MSK həmçinin Dairə Seçki Komissiyaları, polis və icra strukturları üçün təlimlər təşkil etmişdir. MSK mətbuatı, ATƏT/ DTİHB Seçki Müşahidə Missiyasını, iclaslarda iştirak üçün xüsusi icazə olmaqla yerli müşahidəçiləri dəvət etməklə tez tez iclaslar keçirmişdir. Bununla belə, MSK üzvləri çox vaxt iclasdan əvvəl müzakirə üçün zəruri olan ilkin qərarlar və bütün sənədlərlə təmin edilmirlər.

## Seçici Qeydiyyatı

MSK mərkəzləşdirilmiş seçici reyestrinin saxlanmasına görə fəal seçici maarifləndirməsi kampaniyası vasitəsilə ciddi şəkildə səy göstərmişdir. Bütün səsvermə məntəqələrinin seçici siyahısı MSK-nın saytında və seçki dairələrində ictimaiyyətə açıq şəkildə yerləşdirilmişdir. ATƏT/

[3] Seçki Məcəlləsində qeyd edilir ki, ümumilikdə fərq beş faizdən yuxarı ola bilməz. Digər 43 dairə ümümi dairələri 5 faizdən 78ə qədər çatdırmaqla bu hüquqi məhdudiyyətdən daha çox fərqlənir.

[4] Seçki kommissiyası cari tərkibdə 2006-cı ildə təşkil olunmuşdur.

DTİHB Seçki Müşahidə Missiyası yeni seçici adlarının daxil edilməsi və yaxud düzəlişlər edilməsinə əsasən seçicilərin onlayn şəkildə bu məlumatla tanış olmalarını müşahidə etmişdir. Bununla belə, 13 Oktyabr tarixində seçici siyahısında təxmini 4.8 milyon seçicini qeydiyyata almış MSK və Azərbaycanda 18 yaşdan yuxarı olan əhalinin sayını 1 Yanvar 2010 cu il tarixində 6 million elan etmiş Dövlət Statistika Komitəsinin göstəriciləri arasında böyük ziddiyyət vardır.

13 Oktyabrdan sonra seçki günü də daxil olmaqla seçici siyahısı yalnız Dairə Seçki Kommissiyaları tərəfindən dəyişdirilə bilər. Bu dəyişikliklərin nəticəsi olaraq qeydiyyata alınmış seçicilərin sayı 4,844,116 çatmışdır, hansı ki 13 Oktyabrda olan saydan 1,262 nəfər azdır.[5]

## Namizədliyin İrəli Sürülməsi və Qeydiyyat

Namizədin irəli sürülməsi və qeydiyyatı prosesinə DSK-lar nəzarət edir. Siyasi partiyalar və yaxud partiya blokları, seçici qrupları tərəfindən və yaxud şəxsi təşəbbüs əsasında namizədliyi irəli sürülmüş şəxslərin sayı 1400-dür. DSK təqdim olunmuş sənədləri 5 gün ərzində nəzərdən keçirməli və namizədliyin irəli sürülməsini təsdiq etməlidir.

Namizədin qeydiyyatdan keçirilməsi üçün DSK digər məsələlərlə yanaşı, namizədi dəstəkləyən ən azı 450 etibarlı seçici imzası almalıdır.[6] DSKlara cəmi 1.115 potensial namizəd öz qeydiyyat sənədlərini təqdim etmişdir və bunlardan 743 nəfər qeydə alınmışdır. 52 nəfər namizədliyini geri çəkdikdən və 1 nəfərin qeydiyyatdan imtinasından sonra 690 nəfər seçkidə rəqabət aparır. Bunlardan 326 nəfərin namizədliyi siyasi partiyalar və yaxud seçki blokları tərəfindən irəli sürüldüyü halda, 364 nəfər müstəqil namizəd vardır. Müxalifət partiyaları tərəfindən namizədliyi irəli sürülmüş şəxslərin yarıdan çoxu qeydiyyata alınmadığı halda, hakim Yeni Azərbaycan Partiyasının (YAP) bütün namizədləri qeydə alınmışdır. Qeydiyyat üçün sənədlərini təqdim edən 111 YAP üzvünün hamısı (114 nəfərin namizədliyi irəli sürülmüşdür) qeydə alınmışdır. AXCP–Müsavat blokunun namizədliyini irəli sürdüyü şəxslərindən 38 nəfəri, “Qarabağ” və “İslahat” blokunun müvafiq olaraq namizədliyini irəli sürdüyü 95 və 97 nəfərdən 34 və 31-i qeydə alınmışdır. Bir çox namizədlərin qeydiyyatından əksər instansiyalarda imtina edilməsi Seçki Məcəlləsinin müddəalarının ədalətsizcəsinə məhdudlaşdırılmış şəkildə tətbiqi və digər qanunvericilik məsələləri ilə bağlı olmuş və bir çox hallarda hüquqi əsasını tapmamışdır. Nəticə etibarilə namizədlərin fəaliyyəti sərhədlənmiş və seçilmək hüququ heç bir əsas olmadan məhdudlaşdırılmışdır. Bu isə ATƏTin mövcud tələblərinə, ATƏT-in 1990cı il Kopenhagen Sənədinin 7.5 və 7.6 bəndlərinə və Avropa İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsinə ziddir.

Namizədin xeyrinə toplanmış imzaların etibarsız olması DSK-lara namizədi qeydiyyata almaqdan imtina etməyə əsas verən və bir çox hallarda narahatçılıq yaradan başlıca səbəb olmuşdur. ATƏT/DTİHB SMM tərəfindən seçicilərin şəxsiyyət vəsiqəsinin tarixi bitdiyi üçün seçicilərin imzaları DSK tərəfindən etibarsız hesab olunmasıyla bağlı 13 hal aşkarlanmışdır. [7] Qeydiyyatla bağlı digər imtinalar təqdim edilmiş imzaların etibarlılığı ilə bağlı DSK-nın fikirlərinə əsaslanmışdır.[8] Bu narahatlıq doğuran məqam olmuşdur, belə ki DSK gəldiyi nəticələrdə

---

5 www.azstat.org/publications/azfigures/2010/en/004.shtml.

6 İmza əvəzinə mailiyyə depozitinin təqdim edilməsi imkanı 2008-ci ildə Seçki Məcəlləsindən çıxarılmışdır.

7 “İnsan naminə” bloku tərəfindən irəli sürülmüş namizədlər (23 və 90 saylı DSK), “AXCP–Müsavat” bloku tərəfindən irəli sürülmüş namizədlər (44, 90, 117 saylı DSK), “Qarabağ” bloku tərəfindən irəli sürülmüş namizədlər (57, 117 SAYLI DSK), Demokratik Azərbaycan Dünyası Partiyası (90 saylı DSK) və müstəqil namizədlər (40 saylı DSK).

8 “AXCP–Müsavat” bloku tərəfindən irəli sürülmüş namizədlər (29, 47, 50, 64, 80, 94,95, 109 saylı DSK), “Qarabağ” bloku (11, 23, 63, 99, 110 saylı DSK), “İslahat” bloku (53, 67, 109 saylı DSK),”İnsan Naminə” bloku (90 saylı DSK) və müstəqil namizədlər (40, 42, 43, 60, 79, 80, 110, 117, 122 saylı DSK).

qrafoloqların və yaxud digər mütəxəssislərin rəyinə əsaslanmamışdır.[9] Bəzi hallarda seçicilərin imzalarının etibarsız hesab edilməsi seçicilər, namizədlər və ya imzaları toplamış şəxslər barədə təqdim edilmiş məlumatların natamam olmasından qaynaqlanmışdır.[10]

Seçki Məcəlləsinə əsasən namizədin qeydə alınmasından imtina edilməsi barədə qərar verilməzdən əvvəl namizədə yoxlama proseduru haqqında xəbərdarlıq edilməli, onun nəticələri barədə məlumat verilməli və mübahisə doğuran imzaların etibarlılığını sübut etmək və müvafiq düzəlişlərin edilməsi üçün imkan yaradılması[11] kimi hüquqi təminatların mövcudluğuna baxmayaraq, ATƏT/DTİHB SMM-ə bir çox DSK-ların qeydiyyat prosesi, o cümlədən imzaların yoxlanılması ilə bağlı fəaliyyətlərində açıqlığın və şəffaflığın olmaması barədə məlumatlar daxil olmuşdur.[12] Bundan əlavə, Seçki Məcəlləsinin qeydiyyatdan imtinaya dair qərarın "buraxılan səhvə (qüsura, pozuntuya) mütənasib olmalıdır" kimi bir bəndlə şərtlənməsinə baxmayaraq, bu bəndə istinad edilməsi müşahidə edilməmişdir, belə ki, gələcək namizədlərin qeydiyyatından imtina çox zaman onların sənədlərində əksini tapmış kiçik texniki səhvlərə görə həyata keçirilmişdir.

ATƏT/DTİHB SMM-ə seçicilərə imza etmək və ya imzalarını geri götürmək üçün hədə-qorxu gəlindiyi və təzyiqlərin göstərildiyi barədə tutarlı məlumatlar daxil olmuşdur.[13] Bundan başqa ATƏT/DTİHB SMM namizədlərə, onların qohumlarına və nümayəndələrinə qarşı birbaşa hədə-qorxu gəlindiyi barədə məlumatlar almışdır.[14]

## Təşviqat Mühiti

Siyasi mühit məhdudlaşdırılmış olaraq qalır və bir partiyanın ictimai və siyasi həyatda dominantlığı və siyasi alternativlərin marginallaşması ilə xarakterizə olunur. Rəsmi seçki kampaniyasının başlamasından əvvəlki dövr siyasi partiyaların aşkar fəallıqlarının yoxluğu ilə səciyyələnmişdir. Rəsmi kampaniyanın başlamasından əvvəl seçki orqanlarının siyasi partiya və namizədlərin mümkün toplantılarına dair Seçki Məcəlləsini çox məhdud şəkildə şərh etməsi müxalifət partiyaları tərəfindən başlıca problem olaraq göstərilmişdir.[15] Seçkiöncəsi mühit ATƏT-in 1990-cı il

9 Seçki Məcəlləsinin 59.2 maddəsi müstəqil ekspertlər və mütəxəssislərdən ibarət ekspert qrupunun yaradılmasına imkan verir.

10 "AXCP–Müsavat" bloku (29, 44, 50, 90, 106, 117 saylı DSK-lar), "Qarabağ" bloku (57, 99, 117 saylı DSK) tərəfindən namizədliyi irəli sürülmüş şəxslərə və müstəqil namizədlərə (43, 60,69, 72, 122 saylı DSK-lar) münasibətdə. Bəzi hallarda imza sahiblərinin qeydiyyatda olduğu kəndlərdə küçə adlarının olmaması faktına baxmayaraq imzalar ünvanların natamam göstərilməsi səbəbiylə etibarsız hesab edilmişdir.

11 Seçki Məcəlləsinin 59.3, 59.13 və 60.4-cü maddələri.

12 11, 29, 38, 40, 42, 43, 44, 47, 50, 57, 60, 62,63, 64, 67, 73, 75, 76 79, 80, 86, 94, 99, 111, 116, 122 saylı DSK-lar.

13 ATƏT/DTİHB SMM seçici qruplarının müvafiq DSK-ya birgə məktub göndərərək, imzalarını geri götürdüklərini bildirdikləri 14 halı sənədləşdirmişdir. Bütün bu hallarda söhbət ya müxalifətdən olan namizəddən, ya da müstəqil namizəddən getmişdir və bu cür təsirə məruz qalmış namizədlərin hamısı imzalarını geri götürmüş şəxslərə yerli hakimiyyət və ya seçki orqanları tərəfindən təzyiq göstərildiyini iddia etmişlər. Bu cür halların səkkizi "AXCP–Müsavat" blokunun irəli sürdüyü namizədlərə, ikisi Klassik Xalq Cəbhəsi Partiyasının və "Qarabağ" blokunun namizədlərinə və yerdə qalanları isə hərəsinə bir hal olmaqla, "İslahat" blokunun namizədinə və müstəqil namizədə münasibətdə müşahidə edilmişdir. Qeyd olunan hallar 29, 40, 53, 57, 62, 67, 72, 79, 80, 86, 106 və 117 saylı dairələrdə baş vermişdir.

14 Yerli icra hakimiyyəti orqanları tərəfindən namizədlərə hədə-qorxu gəlinməsi ilə bağlı iddialar on dairədən daxil olmuşdur. Bu halların 65, 73, 82, 83, 89 və 98 saylı dairələrdə AXCP–Müsavat namizədlərinə; 99, 113 və 115 saylı dairələrdə "Qarabağ" blokunun namizədlərinə və 83 və 88 saylı dairələrdə Demokratik Azərbaycan Dünyası Partiyasının namizədlərinə qarşı müşahidə edildiyi bildirilmişdir.

15 "AXCP–Müsavat" Bloku tərəfindən planlaşdırılan yeganə müxalifət mitinqi Bakı Şəhər İcra Hakimiyyətinin "planlaşdırılmış mitinqi əsassız" hesab etdiyini bəyan etməsi və MSK sədrinin təşkilatçıları mümkün mənfi nəticələr barədə xəbərdarlıq etməsindən sonra təxirə salınmışdır. Eyni səbəbi əsas gətirən Bakı İcra Hakimiyyəti sonradan təxirə salınan 17 Oktyabra planlaşdırılmış ikinci mitinqə də etiraz etmişdir.

Kopenhagen Sənədinin 7.6 və 7.7-ci müddəaları, həmçinin Avropa İnsan Haqları Bəyannaməsinin 11-ci maddəsinə zidd olaraq fundamental hüquqların məhdudlaşdırılması səbəbindən siyasi ideyalar və platformaların azad və ədalətli rəqabətinə imkan yaratmamışdır. Bəzi iştirakçılar seçki prosesinə az inam olduğunu iddia etmişlər.

İcra strukturları görüşlərin keçirilməsi üçün bir neçə kiçik yer ayırmışdır. Xüsusilə Bakı və bəzi digər şəhərlərdə belə yerlərin sayı qeydiyyata alınmış seçicilərin sayı və dairənin ərazisinin ölçüsünə nisbətdə məhdudlaşdırılmış və mərkəzdən ətrafda yerləşən ərazilər ayrılmışdır. Baxmayaraq ki, rəsmi ayrılmı yerlərdən əlavə digər yerlərdə təbliğat xarakterli hər hansı görüşün keçirilməsi qeyri qanuni hesab olunur,[16] bəzi namizədlər icra strukturlarına xəbər vermədən kiçik miqyaslı görüşlər keçirmişlər. ATƏT/DTİHB SMM-in müşahidəçilərinə rəsmən ayrılmış yerlər də daxil olmaqla namizədlərin təbliğat fəaliyyətinə polis və yerli icra strukturları tərəfindən maneçilik törədilməsi barədə məlumatlar daxil olmuşdur.[17]

Seçki kampaniyası ümumilikdə sakit, sönük və ictimai marağa az səbəb ola biləcək şəkildə keçmişdir. Siyasi platformalar və məsələlərə az yer verilmişdir; yerli əhalinin problemləri namizədlərin seçicilərlə görüşləri zamanı gündəlikdə başlıca yeri tutan məsələlər olmuşdur. İqtidar partiyası, həmçinin müxalifət partiyaları tərəfindən geniş miqyaslı görüşlərin və yaxud aksiyaların keçirilməsi müşahidə edilməmişdir. Təbliğat əsasən namizədlər və onların dəstəkçiləri tərəfindən qapı-qapı gəzib müzakirələr aparmaq prinsipi ilə aparılmışdır.Namizədlər və yaxud partiya liderləri arasında iqtidar və müxalifət partiyaları arasında hər hansı ictimai debat təşkil edilməmişdir. Çox məhdud həcmdə təşviqat materiallarından istifadə edilir və bu cür materiallar əsas etibarilə hakimiyyət orqanları tərəfindən bu məqsədlə ayrılmış lövhələrdə yerləşdirilmiş kiçik plakatlardan ibarətdir.

Yeni dəyişdirilmiş Seçki Məcəlləsinə görə təbliğat müddəti qısaldılmış və siyasi partiyaların və namizədlərin dövlət hesabına mailliyyələşdirilməsinə son qoyulmuşdur. Namizədlərin bir çoxu 2005-ci[18] illə müqayisədə təbliğat kampaniyası müddətinin əhəmiyyətli dərəcədə azaldılması və bununla da uyğun təbliğat kampaniyasının aparılması üçün lazım olan vaxtın azlığından narahatlıqlarını bildirirlər.Müxalifət partiyaları və bir sıra müstəqil namizədlər ATƏT/DTİHB SMM-in müşahidəçilərinə kampaniya aparmaq imkanlarının məhdudlaşmasına səbəb olan dövlət mailiyyəsinin çatışmazlığı və ümumilikdə onlara açıq şəkildə mailiyyə və yaxud digər dəstək verəcəyi halda fərdi sahibkarların qorxudulması nəticəsində yaranan ümumi mühitdən şikayət etmişlər. Bəzi müxalifət namizədləri təbliğat məqsədləri üçün ofis kirayələməkdə problemlərlə üzləşmişdir.

Dövlət orqanları işçilərinin cəlb olunduğu 19 dairədən xüsusilikdə bir namizədin xeyrinə administrativ resursların sui istifadəsi haqqında məlumatlar daxil olmuşdur. ATƏT/DTİHB SMM-in müşahidəçilərinə dövlət işçilərinə YAP namizədlərinə səs verməк və yaxud hər hansı namizədin təbliğat kampaniyası zamanı görüşlərə qatılmaları üçün onlara təzyiqlərin edilməsi barədə tutarlı

[16] Sərbəst Toplaşmaq haqqında Qanunda göstərildiyi kimi, yalnız aidiyyati icra strukturu təklif edilmiş yerlərin siyahısını dəyişdirmək hüququna malikdir, və icra strukturları tərəfindən partiyalara qeyri qanuni hesab olunan mitinqlərin keçirilməməsi barədə xəbərdarlıq edilmişdir. Qanuna əsasən, hər hansı mitinq təşkilatçısı 5 gün öncədən planlaşdırılmış mitinq barədə icra strukturlarını yazılı xəbərdarlıq etməlidir.Seçki kampaniyası müddətində qanunun tətbiqi üçün xüsusi qaydalar mövcud deyildir. Bununla belə, DSK-lar namizədlərə təsdiq edilmək üçün mitinqlərin keçiriləcəyi barədə yazılı müraciət etmək barədə şifahi təlimatlar vermişlər.

[17] 16, 19, 23, 34, 42, 47, 57, 61, 85 saylı dairələrdən icra strukturları və/və yaxud polis tərəfindən rəsmi surətdə ayrılmış görüş yerlərinə müdaxilə və maneçilik törədilməsi haqqında məlumatlar daxil olmuşdur. ATƏT/DTİHB SMM-in müşahidəçiləri 113 saylı dairənin kiçik müxalifət mitinqində qeyri mütənasib sayda çox polisin olduğu barədə məlumat vermişlər.

[18] 2005-ci ildə kampaniya müddəti 60 gündən 23 günə qədər azaldılmışdır.

məlumatlar daxil olmuşdur.[19] ATƏT/DTİHB SMM-in müşahidəçiləri Naxçıvan şəhərində YAP namizədinin kampaniyası zamanı partiya fəalının hansı dövlət işçisinin görüşə qatılıb qatılmadığını yoxlamasının şahidi olmuşdur. Bu cür hadisələr ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin dövlət və siyasi partiyaların bir birindən ayrı olduğunu bildirən- 5.4-cü müddəasını şübhə altına alır.

## Mətbuat

Azərbaycanda bir neçə televiziya stansiyasının bütün ölkə üzrə yayımlanmasına baxmayaraq, elektron mətbuatda müstəqil və obyektiv xəbər ötürücülüyünün yoxluğu və tənqidi qəzetlərin azlıq təşkil etməsi məlumata əsaslanmış seçim etmək üçün vətəndaşların plüralist və tərəfsiz informasiyaya çıxışını məhdudlaşdırır. Bundan başqa, xüsusilə zorakılıq, həbslər,[20] defamasiya şikayətləri[21] və tənqidi fikir bildirən jurnalistlərə digər formalarda edilən və cəzasız qalan[22] təzyiqlər nəticəsində ifadə azadlığının vəziyyətinin pisləşməsindən narahatlıqlarını ifadə edirlər. Nəticə etibarilə, jurnalistlərin bir çoxu bu cür aqibətlə üzləşməmək üçün özünüsenzura metodundan istifadə edirlər.

Heç bir müxalifət partiyası və yaxud blokunun qeydiyyata alınmış namizədlərinin sayı 60-dan yuxarı olmadığı üçün, yalnız iqtidar partiyası İctimai TV və dövlət tərəfindən mailiyyələşdirilən qəzetlərdə pulsuz efir vaxtı və yerdən istifadə edə bilmişdir. Bu səbəbdən MSK İctimai TV-də dəyirmi masa debatları şəklində təşkil olunan müzakirələrdə iştirak üçün hər bir namizəd üçün dörd dəqiqəlik pulsuz efir vaxtının ayrılması barədə qərar qəbul etmişdir. Ayrılmış dörd dəqiqəlik efir vaxtı onlar üçün öz ismarıclarını seçicilərə çatdıra bilmələri üçün yeganə imkan olmuşdur, belə ki, heç bir digər yerli televiziya kanalı namizədlərin iştirakı ilə hər hansı debat və yaxud siyasi tolk şou təşkil etməmişdir. Namizədlər həmçinin dövlət qəzetlərində ayrılmış pulsuz yerlərdən də istifadə edə bilər və siyasi təbliğat üçün ödənişli vaxt ala bilərlər, baxmayaraq ki, yalnız 2 yerli televiziya kanalı buna imkan yaratmış və yalnız 15 namizəd bundan yararlanmışdır.

Rəsmi seçki kampaniyası dövründə KİV-də seçki proseslərinin işıqlandırılması diqqətin əsas etibarilə seçki kampaniyasına deyil, daha çox seçkinin prosedur aspektlərinə yönəldilməsi ilə xarakterizə olunur.[23] İctimai Kanal da daxil olmaqla, bütün başlıca televiziya kanalları kampaniya kontekstindən kənar şəkildəgüc strukturlarının fəaliyyətini geniş şəkildə işıqlandırmışlar. [24] Tez-tez əldə edilmiş nailiyyətlərə və uğurlara istinad etməklə, dövlət rəsmilərinin işi və həyata keçirdikləri tədbirlər barədə müsbət fikrin aşılanması tendensiyası aydın müşahidə edilir, lakin onların fəaliyyəti barədə müstəqil və tənqidi fikirlərə umumi götürdükdə, hələlik yer ayrılmır. Müxalifətin fəaliyyətinin isə televiziya kanallarında işıqlandırılması demək olar ki, müşahidə olunmur.[25]

---

[19] Bu cür məlumatlar 1, 2, 4, 8, 10, 11, 21, 23, 29, 34, 41, 47, 53, 57,72, 89, 113, 116, 125 saylı dairələrdən daxil olmuşdur.

[20] Qəzet redaktoru Eynulla Fətullayev Avropa İnsan Haqları Məhkəməsinin onu dərhal azadlığa buraxmaq haqqında qərarına baxmayaraq hələ də həbsdədir.

[21] Yüksək rütbəli dövlət rəsmisinin ATƏT/DTİHB SMM-ə verdiyi məlumata görə yaxın gələcəkdə defamasiyanın ləğvi qanunvericilikdə öz əksini tapa bilər.

[22] Bax, ATƏTin Mətbuat Azadlığı üzrə Nümayəndəsinin ATƏT-in Daimi Şurasına ünvanladığı Müntəzəm Hesabatı, 29 İyul, 2010 http://www.osce.org/documents/pr/2010/07/45552_en.pdf və Avropa Şurasının 1750 saylı qətnaməsi "Azərbaycanda demokratik institutların funksiyası", http://assembly.coe.int/Main.asp?link=/Documents/AdoptedText/ta10/ERES1750.htm.

[23] Monitorinq aparılmış bütün kanallar MSKnın işini geniş işiıqlandırmışlar.

[24] Bura eyni zamanda hökumət tərəfindən yeni yolların, məktəblərin, parkların, teatrların və yeni YAP ofisinin açılışı və yaxud mənzil, ev, maşın və digər hədiyyələrin paylanması kimi mərasimlərin işıqlandırlması da daxil olmuşdur.

[25] Seçki Məcəlləsinin 69.1-ci maddəsi qeydiyyatdan keçmiş bütün namizədlərə eyni imkanların tanınmasını təmin edir. Seçki Məcəlləsinin 77.1-ci maddəsi İctimai TV və dövlət tərəfindən mailiyyələşdirilən qəzetlərin namizədlər üçün bərabər imkanlar yaratmasını təşviq edir.Əlavə olaraq, Televiziya və Radio Yayımları

İTV kampaniyanın başlanması tarixindən etibarən dövlət rəsmilərinin fəaliyyətlərinə aidiyyatı olan siyasi və seçki ilə bağlı xəbərlərə daha az yer vermək istiqamətində müəyyən səy göstərsə də, yenə də onlara digər siyasi xadimlər ilə müqayisədə daha çox diqqət ayrılır.[26] 28 Oktyabrdan başlayaraq, İTVnin xəbərlər bölməsi qeydiyyata alınmış bütün siyasi partiyaların və blokların nümayəndələri ilə qısa müsahibələr təşkil etmişdir. Həmçinin İctimai Televiziya "Xalq Seçir" adlı bütünlükdə seçkilərə həsr olunmuş xüsusi proqram yayımlamışdır. Namizədlər arasında debtaların təşkil olunmasından əlavə proqram həm də seçkilərə hazırlıq və seçicilərin maarifləndirilməsinə diqqət yönəltmişdir.

Dövlət tərəfindən maliyyələşdirilən AzTV icra strukturları və hakim partiyanın xeyrinə açıq aşkar ikili mövqe nümayiş etdirmişdir.[27] Özəl kanalların əksəriyyəti eyni yanaşmanı tətbiq edirlər. Bəzi özəl kanallar tərəfindən müxalifət namizədlərini və jurnalistləri nüfuzdan salan materiallar hazırlanmışdır.

Özəl kanal – ANS kanalında xəbərlərin əsas hissəsi hakimiyyət orqanları və hakim partiya barədə məlumatlara həsr edilmişdir, lakin İctimai TV kimi ANS TV-də də müxalifətdən olan namizədlər barədə də müəyyən xəbərlər yayımlanmışdır. [28] Bu kanalın lisenziyası keçmişdə ləğv edilmiş və həmçinin kanal Milli Televiziya və Radio Şurası (MTRŞ) tərəfindən bu il iki xəbərdarlıq almışdır,[29] bu xəbərdarlıqlardan biri verilişlərin birində nalayiq ifadələrin işlədilməsinə görə edilmişdir ki, bu da MTRŞ-dan bildirildiyi kimi azyaşlıların qorunması üçün mövcud qaydaların[30] pozulmasıdır. MTRŞ müxalifət qəzetinin redaktorunun bir qadınla seks səhnəsini əsas xəbər proqramı zamanı bir neçə dəfə yayımlayan Lider telekanalına qarşı heç bir tədbir görməmişdir. Bir saatlıq proqram zamanı təbliğat müddətinin 12 dəqiqə ilə sərhədlənməsinin MTRŞ tərəfindən məhdud şərh edilməsi nəticəsində ANS namizədlər arasında heç bir debatın təşkil edilməməsini qərara almışdır.[31]

Çap mətbuatının ümumilikdə televiziyaya nisbətən daha geniş şəkildə fərqli baxışlara yer verməsinə baxmayaraq,[1] dövlət tərəfindən mailiyyələşən *Azərbaycan* və *Respublika* qəzetləri hökumətə açıq dəstək vermişlər və özəl qəzet olan *Zerkalo* hökumətin fəaliyyətini əsasən neytral və pozitiv perspektivdən işıqlandırmışdır. MSK dövlətin maliyyələşdirdiyi mətbuat orqanlarının xəbərləri balanslaşdırılmamış şəkildə işıqlandırılmasına qarşı hər hansı effektiv vasitənin tətbiq edilməsi üçün tədbir görməmiş və bununla da ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.8-ci

---

haqqında Qanunun 32-ci maddəsi proqramların hazırlanması zamanı tərəfsiz, müfəssəl, dolğun və həqiqi məlumata əsaslanmağı təşviq edir.

26 15 Oktyabr–6 Noyabr tarixləri arası prezidentin fəaliyyəti barədə əsas etibarilə pozitiv məlumatlar çatdıran xəbərlərə 44 dəqiqədən artıq vaxt sərf olunsa da, seçki kampaniyasının ilk 11 günü ərzində bu cür xəbərlərə təxminən 20 dəqiqə vaxt ayrılmışdır. Bundan başqa, hökumət və YAP-la bağlı xəbərlərə müvafiq olaraq 37 və təxmini beş dəqiqə vaxt sərf olunmuşdur. Bunun əksinə olaraq, əsas müxalifət blokunun fəaliyyəti ilə bağlı neytral xarakterli xəbərlərə ümumulikdə üç dəqiqə yarım vaxt ayrılmışdır, 15–25 oktyabr tarixləri arasında isə neytral xarakterli xəbərlərə 20 saniyədən az vaxt sərf olubnmuşdur.

27 Rəsmi kampaniya müddətində AzTV tamamilə 4 saat və 24 dəqiqə prezidentə, 1 saat və 26 dəqiqə hökumətə və 24 dəqiqədən çox YAP-a həsr etmişdir. Bunun əksinə olaraq müxalifət bloku neytral 4 saniyəyə malik olmuşdur.

28 Məsələn, yalnız İctimai TV və ANS AXCP–Müsavat blokunun qeydiyyat prosesiylə bağlı tənqidini xəbərlərdə işıqlandırmışdır.

29 Televiziya və Radio Yayımları haqqında Qanuna əsasən üçüncü xəbərdarlıq lisenziyanın ləğvi ilə nəticələnə bilər.

30 Uşaq və Azyaşlıların Fiziki, Əqli və Mənəvi İnkişafına Təsir Göstərən Proqramlar üçün nəzərdə tutulmuş Xüsusi Qaydalar toplusunun 2.7 və 2.8-ci bəndlərinə əsasən saat 07:00və 23:00 arasında erotik filmlər və seks barədə verilişlər in yayımlanması və qeyri-münasib sözlərin işlədilməsi qadağandır.

31 MRTŞ siyasi təbliğat və debatlar üçün ayrılmış proqramların hər saatında 12 dəqiqəlik məhdudiyyət tətbiq etmişdir.Bu qərara əsasən əgər namizəd debatlar zamanı öz platforması barədə danışırsa, bu siyasi təbliğata daxildir və 12 dəqiqəlik limit tətbiq olunur.

müddəasında əksini tapmış öhdəliklərə zidd olaraq namizədlər və siyasi partiyalar üçün bərabər imkanların yaradılmasını təmin etməkdə iflasa uğramışdır.[32]

## Qadınların İştirakı

Qadın və kişilər arasında bərabərlik Konstitusiya və Qadın və Kişilər arasında Bərabərliyin Dövlət tərəfindən Təmin edilməsi ilə bağlı Qanunla təmin olunsa da, qadınların siyasət, seçkilər və hökumətdə iştirakını dəstəkləyən xüsusi tədbirlər yoxdur. Bəzi azsaylı istisnaları çıxmaq şərtilə, qadınlar Azərbaycan siyasətində yüksək profilə malik deyillər. Cari parlamentin tərkibində təmsil olunan 125 millət vəkilindən 14-ü qadındır. Hazırda 20 nazir arasında qadın yoxdur.

Bu seçkilərdə qeydiyyatdan keçmiş namizədlərin 13 faizi qadınlardır, bu 2005ci il seçkilərindən 3 faiz çoxdur.YAP tərəfindən namizədlikləri irəli sürülmüş 20 qadından sənədlərini təqdim etmiş 19 qadının hamısı qeydiyyata alınmışdır. "AXCP–Müsavat" blokunda isə namizədlikləri təqdim olunmuş 4 qadından 1i qeydiyyata alınmışdır. "Qarabağ" bloku tərəfindən namizədlikləri irəli sürülmüş 5 qadın namizədin heç biri qeydiyyata alınmamış, Klassik Xalq Cəbhəsi Partiyası tərəfindən namizədlikləri irəli sürülmüş 5 qadından 2i qeydiyyata alınmışdır. Qadın namizədlərin əksəriyyəti seçkiyə müstəqil olaraq qatılmış namizədlərdir. Seçki administrasiyasının yuxari pillələrində təmsil olunmuş qadınların sayı da qənaətbəxş deyildir. MSK-nın 18 üzvündən 4-nün qadın olmasına baxmayaraq, 125 dairə sədrindən yalnız 3ü qadındır. Seçki günündə beynəlxalq müşahidəçilər tərəfindən baş çəkilmiş məntəqə seçki kommissiyalarında qadınların sədr olduğu məntəqələr 32 faiz təşkil etmişdir. Məntəqə seçki kommissiyalarının üzvlərinin 60 faizi qadınlardır.

## Milli Azlıqların İştirakı

Milli azlıqların Azərbaycan əhalisinin təxmini 10 faizini təşkil etməsinə baxmayaraq, milli azlıqlarla bağlı olan məsələlər seçkilər zamanı qabardılan problemlər arasında olmamışdır. Seçkilərdə xüsusi olaraq hər hansı milli azlığın maraqlarını təmsil edən siyasi partiya iştirak etmir.Bununla belə, bütün siyasi partiyalar tərəfindən irəli sürülmüş namizədlərin içərisində milli azlıqlara rast gəlmək mümkündür.

## Müraciət və Şikayətlər

Vaxtı uzadılan şikayətlər və müraciətlərin tutarlı şəkildə əsaslandırılmayan qərarlarla nəticələnməsi səbəbindən ümumilikdə şikayətlərin təmin edilməsi üçün effektiv tədbirlər görülməmişdir. Müraciət və şikayətlər seçicilər, namizədlər, siyasi partiyalar və bloklar və onların nümayəndələri, müşahidəçilər və seçki kommissiyaları tərəfindən edilə bilər. Seçki kommissiyalarının seçki hüququna xələl gətirəcək hərəkətləri daha yuxarı pilləli seçki kommissiyası tərəfindən araşdırıla bilər. Seçki kommissiyalarının şikayətlər üzrə qərarları, həmçinin MSK-nın qərarları və hərəkətləri Appelyasiya Məhkəməsi tərəfindən araşdırıla bilər. Sonrakı mərhələdə Appelyasiya Məhkəməsinin qərarlarına Ali Məhkəmədə baxılması mümkündür.

Seçki Məcəlləsi seçki ilə bağlı mübahisələrə baxılması üçün müvafiq olaraq, doqquz və üç nəfərdən ibarət MSK və DSK səviyyəli ekspert qruplarının yaradılmasını nəzərdə tutur. Məcəllə belə ekspertlərin təyinatı üçün heç bir kriteriya müəyyən etməyib.[33] Bir qayda olaraq, ekspert qrupları kommissiya üzvləri və işçilərindən təşkil olunur. ATƏT/DTİHBnın müşahidələrinə əsasən

---

[32] ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.8-ci müddəası mətbuata ayrıseçkilik olmadan maneəsiz çıxışı təmin edir.

[33] Seçki Məcəlləsinin 112.1.1-ci maddəsi hüquqşünas olan şəxslərin bu qruplara daxil edilə bilməsinin mümkünlüyünü təsbit edir. Bu qrupların təyin edilməsi MSK tərəfindən aparılır.

ekspert qrupunun faktları qiymətləndirməsi sual doğuran məqamlardandır, belə ki, nəşr olunmuş məşvərətçi rəylərdə detallı arqumentlər öz əksini tapmamışdır.

Seçki günündən öncə edilmiş müraciət və şikayətlərin baxılması üçün 3 gün vaxt verilir. Seçki Məcəlləsində nəzərdə tutulduğu kimi ekspert qrupları araşdırma vaxtının uzadılmasını xahiş edə bilər. Bu müddəa bir qədər problemlidir, belə ki, o daha artıq vaxt müddətini müəyyən etmir. Bu üsul MSK tərəfindən geniş şəkildə istifadə edilmiş və süründürməçiliyə, eyni zamanda seçki kampaniyasının müddətinin qısaldılmasına səbəb olaraq effektiv və zamanında tədbir görülməsini şübhə altına qoymuşdur. Ali Məhkəmə tərəfindən işlərin baxılmasına ən azı 6 Noyabra qədər davam etmişdir.

Noyabrın 2nə qədər MSK tərəfindən 234 şikayətə baxılmışdır ki, bunların da 175-i namizədlərin qeydiyyatla bağlı DSK-dan verdiyi şikayətlər olmuşdur. Digər şikayətlər isə DSK-ların fəaliyyətsizliyi və qeyri qanuni hərəkətləriylə bağlı olmuşdur. MSK namizədlərin qeydiyyatı ilə bağlı 35 şikayəti və 85ci dairədən olan namizədin təzyiq nəticəsində namizədliyini geri götürməsilə bağlı şikayətini təmin etmişdir. Şikayətlərə baxış tələsik şərait, müzakirələrin az sayda olması, bəzən isə heç olmaması ilə səciyyələnmişdir; MSK bütün hallarda ekspertlərin rəyini qəbul etmişdir. Yalnız bir halda şikayətçi MSK-nın şikayətə baxış iclasında iştirak edərək öz arqumentlərini təqdim edə bilmişdir. MSK şikayətlər üzrə ekspert rəyi olaraq qrafoloqdan istifadə etdiyini bildirmişdir. DSK tərəfindən ən azı 100 şikayətə baxılmışdır ki, bunların əksəriyyəti icra strukturları və bələdiyyələr tərəfindən qeyri qanuni müdaxilə və seçki kampaniyasına digər namizədlər tərəfindən maneçilik törədilməsiylə bağlı olmuşdur. Bunların əksəriyyəti səbəbsiz və əsassız hesab olunmuşdur. Qanun pozuntuları zamanı MSK və DSK-nın qərarlarının böyük əksəriyyətində tutarlı və təfsilatlı dəlillər öz əksini tapmamışdır.[34] Əlavə olaraq, hüquqi düzəliş vasitələri qərarlarda öz əksini tapmamışdır. Bu da ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 5.10 və 5.11-ci müddəalarını şübhə altına alır.

Noyabrın 8-dən başlayaraq Bakı Appelyasiya Məhkəməsinə 100 müraciət daxil olmuş və bu müraciətlərdən 89-na mahiyyəti üzrə baxılmışdır. 4 şikayət istisna olmaqla, bunların demək olar ki, hamısında DSK-nın namizədlərin qeydiyyatından imtinası ilə bağlı qərarların ləğvi xahiş olunur. Yalnız 5 şikayət təmin edilmişdir. Tərəflərin məhkəmə dinləmələri zamanı öz arqumentlərini təqdim etmək imkanına malik olmuşlar; lakin əksər hallarda məhkəmə şikayətçilər tərəfindən təmin edilən şahidlərin ifadələrini və digər sübutları qəbul etməkdən imtina etmişdir. Qrafoloqlar tərəfindən ekspertizaya cəmi 32 sənəd göndərilmişdir. Aidiyyatı üzrə hüquqi təminatların tərkibindəki ikimənalı fikirlərə görə müraciətlərin edilməsi üçün qoyulan son tarixə hər zaman əməl edilməmişdir;[35] məhkəmə son tarixlərlə bağlı qeyri ardıcıl mövqe sərgiləmişdir. Yerli qanunvericiliyə zidd olaraq[36]Appelyasiya Məhkəməsinin qərarlarının böyük əksəriyyətində təfsilatlı və tutarlı əsaslandırmaya rast gəlinmir və onlar şikayətçinin gətirdiyi dəlilləri müvafiq qaydada araşdırmır.

ATƏT/DTİHB SMM namizədlərin qeydiyyatı ilə əlaqədər Ali Məhkəmə tərəfindən ən azı 30 işə baxılması faktı ilə tanışdır. Bu halların dördündə Ali Məhkəmə Apelyasiya Məhkəməsinin qərarlarını ləğv etmiş və namizədlərin qeydiyyatına şərait yaratmışdır. Namizədin xeyrinə olan sonuncu yekun qərar Noyabrın 3-ü qəbul edilmişdir, baxmayaraq ki namizədlərin qeydiyyatla bağlı mübahisələrini həll etmək üçün Ali Məhkəmənin bundan sonrakı dinləmələri seçki günündən sonra baş tuta bilər.

---

[34] Seçki Məcəlləsinin 25.2.2 və 112.4-cü maddələri.

[35] Seçki Məcəlləsinin 112.1-ci maddəsi.

[36] Mülki Prosesual Məcəllə (220.1 və 220.4-cü maddələr məhkəmə qərarlarının dəlilləri də daxil etməsini təsbit edir).

## Yerli Müşahidəçilər

Seçki Məcəlləsi bütün seçki prosesi boyunca beynəlxalq və yerli seçki müşahidəsinin aparılmasını nəzərdə tutur. Ümumilikdə 46,630 və 1,029 beynəlxalq müşahidəçi MSK və DSK tərəfindən qeydiyyata alınmışdır. 5,444 yerli müşahidəçi 11 Qeyri Hökumət Təşkilatını (QHT) təmsil edir, təxmini 8,378 nəfər partiya müşahidəçisi olaraq qeydə alınmışdır. Yerdə qalanlar isə fərdi müşahidəçi olaraq qeydiyyatdan keçmişdir. Bəzi QHT-lər "Parlament–2010" koalisiyası, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafı Assosiasiyası, Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMMD) və "Demokratiyanı Öyrənmə" İctimai Birliyi uzunmüddətli və qısamüddətli müşahidələr həyata keçirilmişdir. Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatından imtina edilmiş[37] SMMDEM müşahidəçiləri fərdi şəkildə akkreditasiyadan keçmişlər.

## Seçki Günü

Seçki gününün ümümilikdə sakit, eyni zamanda gərgin keçməsinə baxmayaraq beynəlxalq müşahidəçilər seçki qutularına topa bülletenlərin atılması faktı da daxil olmaqla ciddi sayda qayda və prosedur pozuntularının olduğu haqda məruzə etmişlər. MSK seçki axşamı dairələr və ətraf ərazilər üzrə nəticələrin hesablanmasına başlamışdır. MSK-nın ilkin nəticələrinə görə seçici fəallığı 50 faiz olmuşdur.

Qutuların açılması proseduru da baş çəkilmiş səsvermə məntəqələrinin 21 faizində mənfi qiymətləndirilmişdir. Bu cür qiymətləndirmənin səbəbi seçki qutularının üzərindəki möhürün seriya nömrəsinin qeyd edilməməsi, istifadə edilməmiş QÇV-nin ləğv olunmaması, və ilkin tərtib olunmuş protokollarda seçki bülletenlərinin sayının qeyd edilməməsi olmuşdur.

Beynəlxalq müşahidəçilər müşahidə aparılan 1100 səsvermə məntəqəsinin təxmini 90 faizində positiv qiymətləndirmə aparmışdır (5,175 məntəqədən), lakin içərisində ciddi problemlərin müşahidə olunduğu məntəqələrin sayı təxmini 10 faizdir. Bir nəfərin bir neçə dəfə səs verməsinin qarşısını almaq üçün nəzərdə tutulan başlıca ehtiyat tədbiri-seçicilərin barmağının mürəkkəbə batırılmasının yerinə yetirilməməsi geniş yayılmış prosedur pozuntusu kimi qeydə alınmışdır. Müşahidə aparılmış məntəqələrin 12 faizində seçicilərin hamısının barmağının mürəkkəbə batırılması yoxlanılmamış, məntəqələrin 7 faizində isə seçicilərin hamısının barmağı mürəkkəbə batırılmamışdır. Bir neçə məntəqə seçki komissiyasında bu qaydanın yerinə yetirildiyi ümumiyyətlə müşahidə edilməmişdir. Beynəlxalq müşahidəçilərin verdiyi məlumatlar əsasən, 95 səsvermə məntəqəsində seçici siyahısında imzaların oxşar olması, 61 sayda seçki qutularına topa bülletenlərin atılması halları və beş səsvermə məntəqəsində karusel əməliyyatının həyata keçirilməsi müşahidə edilmişdir. Əlavə olaraq, müşahidə aparılan səsvermə məntəqələrinin 7 faizində qrup şəklində səsvermə halları müşahidə edilmişdir. Müşahidə aparılmış səsvermə məntəqələrinin 7 faizində seçicilərin hamısı seçki blanklarını gizli şəkildə doldurmamışdır. Müşahidə aparılımış məntəqələrin 45 faizindən çoxunda fiziki qüsuru olan insanların səs verməsinə şəraitin olmaması qeydə alınmışdır.

Beynəlxalq müşahidəçilərin verdikləri məlumatlara əsasən səsvermə məntəqələrində və məntəqələrdən kənar 63 ərazidə gərginlik yaşanmış, seçicilərə səs vermək üçün təsir göstərmək

[37] Bu iş hal hazırda Bakı Appelyasiya Məhkəməsindədir. SMDT-nin sələfi olan Seçki Müşahidə Mərkəzinin (SMM) qeydiyyatı QHT olaraq 14 May 2008-ci ildə Ədliyyə Nazirliyinin iddiasi əsasında rayon məhkəməsi tərəfindən ləğv edilmişdir. Bu məsələ ilə əlaqədar SMM-in şikayəti hal hazırda Avropa İnsan Haqları Məhkəməsində həllini gözləyən işlər sırasındadır.

cəhdlərinin sayı 18 olmuş və doqquz hədələmə halına rast gəlinmişdir. 78 seçki məntəqəsində səlahiyyəti çatmayan şəxslərin olmasına, 13 ərazidə seçki prosesinə birbaşa müdaxilə və yaxud yönləndirmə prosesinə rast gəlinmişdir. Müşahidə aparılmış səsvermə məntəqələrinin 91 faizində namizədlər, partiyalar və seçki bloklarının səlahiyyətli nümayəndələrinin iştirak etdiyi məlum olmuş və məntəqələrin 56 faizində partiya təmsilçiliyi olmayan yerli müşahidəçilərin iştirak etdiyi məlum olmuşdur. Beynəlxalq müşahidəçilərə müşahidəçilər və səlahiyyətli nümayəndələrin səsvermə məntəqələrindən çıxarılması, onlara təzyiqlərin edilməsi, həbslər və fiziki hücumlara məruz qalması barədə məlumatlar daxil olmuşdur. 114 səsvermə məntəqəsində beynəlxalq müşahidəçilərə müşahidə aparmaq məhdudlaşdırılmışdır.

Beynəlxalq müşahidəçilər səslərin hesablanması prosesinin 31 faizini mənfi qiymətləndirmişlər. Müşahidə edilən səsvermə prosesinin 11 faizindən çoxunda səyyar və daşınmaz seçki qutularındakı blankların sayının seçici siyahısındakı imzalardan daha çox olması, 24 seçki qutusunda blankların dəstə və ya topa şəklində yerləşməsi müşahidə edilmişdir ki, qutulara topa bülletenin atılmasının daha erkəndən baş verməsi ehtimal olunur. Bir neçə azsaylı halda Məntəqə Seçki Komissiyaları səslərin sayılmasını ayrıca otaqda həyata keçirmişlər. 12 məntəqədə nəticələrə müdaxilə edilmişdir.

Səslərin sayılmasının dörddə bir hissəsindən çoxunda əhəmiyyətli sayda prosedur səhvlərinin olması müşahidə edilmişdir. Çoxlu sayda Məntəqə Seçki Kommissiyaları seçici siyahısında olan seçici imzalarının, QÇV-nin, səyyar səsvermə ilə bağlı müraciətlərin sayılması və protokollara daxil edilməsi kimi qanunun tələb etdiyi ən sadə prosedurları yerinə yetirməmişdir. Bülletenlərin yararlılığı hər zaman tutarlı və ardıcıl şəkildə nəzərdən keçirilməmiş, səslərin sayılması zamanı 61 faiz mübahisəli seçki bülletenlərinə Məntəqə Seçki Komissiyası səs verməkdən imtina etmişdir. Səslərin sayılması prosesinin 21 faizi zamanı hər kəsin bülletenlərin necə işarələndiyini aydın görmək imkanı olmamış, səslərin sayılmasının 33 faizində isə protokola daxil edilməzdən öncə məlumatlar ucadan elan edilməmişdir.

Məntəqə Seçki Komissiyalarının 30 faizindən çoxunda protokolun nəticələrini yekunlaşdırmaqla bağlı problem yaşanmışdır. 8 Məntəqə Seçki Kommissiyası ilkin protokola daxil etdiyi məlumat yenidən nəzərdən keçirmişdir. Yekun protokolların öncədən imzalanmasına və tam doldurulmamasına 10 halda rast gəlinmiş, qələmlə doldurulmasına 12 halda rast gəlinmişdir. Bəzi Seçki Məntəqə Kommissiyaları qanunun tələblərinə uyğun olaraq səslərin sayılması başa çatandan dərhal sonra protokolları doldurmamışdır. Səslərin sayılması prosesinin 35 faizində Məntəqə Seçki Kommissiyası protokolun surətini ictimai baxış üçün təqdim etməmiş və bir çox hallarda müşahidəçilərin tələblərinə baxmayaraq onlara da protokolların surəti təqdim edilməmişdir.

***Təqdim olunan sənədin rəsmi əsli yalnız İngilis dilində olan variantı hesab olunur. Bununla belə bu bəyanatı Azərbaycan dilində də əldə etmək mümkündür.***

## MİSSİYA HAQQINDA MƏLUMAT VƏ MİNNƏTDARLIQ

ATƏT/DTİHB Seçkiləri Müşahidə Missiyası 28 Sentyabrda Bakıda 16 ekspertin mərkəzdə və 22 uzunmüddətli müşahidəçinin Azərbaycanın regionlarında yerləşdirilməsi ilə işə başlamışdır.ATƏT Parlament Assambleyası 14–17 oktyabrda seçkiöncəsi səfərdə olmuş və AŞPA-nın seçkiöncəsi missiyası 18–21 Oktyabrda Bakıya səfər etmişdir.

Seçki günü ATƏT Parlament Assambleyasının nümayəndə heyətinin 51 üzvü, AŞPAnın nümayəndə heyətinin 31 üzvü və Avropa Parlamentinin nümayəndə heyətinin 16 üzvü də daxil olmaqla 405 qısamüddətli müşahidəçi təyin edilmişdir. Ümumilikdə ATƏT üzvü olan 41 ölkədən müşahidəçilər gəlmişlər. 5175 səsvermə məntəqəsindən 1200-də səsvermə müşahidə edilmişdir. 144 səsvermə məntəqəsində səslərin sayılması prosesi müşahidə edilmişdir.

Cənab Volfqanq Qrössrük (Avstriya), ATƏT PA-nın Vitse Prezidenti və ATƏT PA Nümayəndə Heyətinin Rəhbəri ATƏTin fəaliyyətdə olan Rəhbəri tərəfindən Xüsusi Əlaqələndiricisi təyin edilmiş və ATƏTin qısamüddətli müşahidə missiyasına rəhbərlik etmişdir. Cənab Pol Uill (Belçika) AŞPAnın nümayəndə heyətinə rəhbərlik etmişdir. Xanım Anneli Yaatteenmaki (Finlandiya) Avropa Parlamentinin nümayəndə heyətinə rəhbərlik etmişdir. Səfir Odriy Qlover (Böyük Britaniya) ATƏT/DTİHB Seçki Müşahidə Missiyasının rəhbəridir.

Müşahidəçilər onları seçkiləri müşahidə etməyə dəvət etdikləri üçün Azərbaycan Respublikasının dövlət orqanlarına, göstərdiyi əməkdaşlığa və akkreditasiya sənədlərinin təmin edilməsinə görə Mərkəzi Seçki Kommissiyasına, Xarici İşlər Nazirliyi və digər dövlət orqanlarına əməkdaşlıq və yardıma görə təşəkkür edir. Həmçinin müşahidəçilər ATƏT-in Bakı Ofisi, Avropa Şurası Baş Katibinin Xüsusi Nümayəndəsi, Avropa Birliyinin Nümayəndəliyi, Azərbaycanda fəaliyyət göstərən səfirliklər və beynəlxalq təşkilatlara əməkdaşlığa və göstərdikləri dəstəyə görə minnətdarlığını bildirir.

Əlavə məlumat üçün:


- Səfir Odriy Qlover, ATƏT/DTİHB Bakıdakı Seçki Müşahidə Missiyasının rəhbəri (+994–12–598 2556);
- Cənab Yens Eşenbexer, ATƏT/DTİHB Sözçüsü (+48–603–683 122) və yaxud Cənab Drü Hislop, ATƏT/DTİHB Seçki Məsləhətçisi, Varşava (+48–22–520 0600);
- Petra Jezkova, ATƏT AP, +994 (0) 502507318 və yaxud +45 6010 8173, petra@oscepa.dk;
- Vladimir Dronov, AŞPA, +994 (0) 507833741 və yaxud +33 663 49 37 92, vladimir.dronov@coe.int;
- Alina Alexandra Georgescu, AP, +994 (0) 502255584 və yaxud +32498981364, alina.georgescu@europarl.europa.eu;

**ATƏT/DTİHB SMMissiyasının Ünvanı:**
45, Xaqani küçəsi
1010 Bakı, Azərbaycan Respublikası
Tel:+994–12–598 2556
Fax: +994–12–498 8067
Email: office@odihr.az